

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 172 (21.582)

15 sentyabr 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Bakının Nizami rayonundakı 32 nömrəli tam orta məktəb üçün yeni tədris korpusu tikilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də yeni tədris korpusunda yaradılan şəraitlə tanış olub.

Məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri ilə bağlı dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, 1963-cü ildən fəaliyyətdə olan məktəbdə bir neçə il bundan əvvəl əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. Lakin sonradan şagird sıxlığına görə məktəbin genişləndirilməsi zərurəti yarandığından ərazidə yeni korpusun tikintisinə başlanılıb. Yeni korpusda 800 şagird yerlik 40 sinif otağı yaradılıb. Yaradılan şərait 1150 şagirdin təhsil aldığı məktəbin imkanlarını daha da genişləndirib. Belə ki, yeni dərs ilindən həm Azərbaycan, həm də rus bölmələrindən ibarət olan məktəb birnövbəli rejimə keçir.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə 2016/2017-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş bir qrup tələbəyə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır:

Əliyev Toğrul Mahmud oğlu
Məmmədov İsmayıl Ruslan oğlu
Məmmədzadə Ramil Yaşar oğlu
Yadigar Murad Bəxtiyar oğlu

## Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin yeni inzibati binası istifadəyə verilmişdir





Sentyabrın 14-də Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin inzibati binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri Müslüm Cabbarzadə çıxış edərək demişdir ki, perspektiv inkişafın təmin edilməsi, gələcək nəsillərin məskunlaşması və əhalinin ərzaq tələbatının daha dolğun ödənilməsi torpaqların mühafizə edilməsindən, ondan səmərəli istifadə səviyyəsindən asılıdır. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, torpaqlardan səmərəli istifadə istiqamətində də mühüm tədbirlər görülür. Əkinəyararlı torpaqlardan səmərəli istifadə edilməsi, torpaqlardan istifadəyə dövlət nəzarətinin gücləndirilməsi, daşınmaz əmlakın kadastrı və reyestrinin təkmilləşdirilməsi sahəsində fəaliyyət ardıcıl xarakter almışdır. Komitə sədri yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələrin icrasında səy və bacarıqlarını əsirgəməyəcəklərini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Azərbaycan Respublikası 25 ildir müstəqil dövlət kimi yaşayır. Müstəqillik illərində ölkəmizdə yeni dövlət qurumları yaradılmış və fəaliyyəti təmin edilmişdir. Bu dövlət qurumlarından biri də torpaq məsələləri üzrə komitə və daşınmaz əmlakın dövlət reyestri xidmətidir. Azərbaycanda torpaq islahatlarına 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanılmış, "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" qərarlar qəbul edilmişdir. Həmin dövrdə ilk dəfə Culfa rayonunun Gal və Şurud kəndlərində torpaqların və əmlakın özəlləşdirilməsinə başlanıldı. Sonrakı dövrdə bu proses ümummilli liderin rəhbərliyi ilə ölkəmizdə davam etdirilmişdir.



Ali Məclisin Sədri demişdir: Əvvəllər torpaq və daşınmaz əmlak ayrı-ayrılıqda qeydiyyata alınaraq qiymətləndirilirdi. Lakin bu gün torpaqların və daşınmaz əmlakın qeydiyyatı və qiymətləndirilməsi vahid dövlət qurumu tərəfindən həyata keçirilir. 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılaraq fəaliyyəti təmin edilmişdir. Komitədə vətəndaşların həm əmlakı, həm də torpaq sahələri qeydiyyata alınaraq qiymətləndirilir, hər bir şəxsə məxsus əmlak haqqında elektron məlumat bazası yaradılır. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, artıq muxtar respublikada əmlak bankının yaradılmasına başlanılmışdır. Daşınmaz əmlakın və torpaq sahələrinin düzgün qiymətləndirilməsi və elektron məlumat bazasının yaradılması isə vətəndaşların öz əmlakları əsasında kredit götürməsinə və bu sahədə fəaliyyətin sadələşdirilməsinə imkan verəcəkdir. Bu tədbirlərin həyata keçirilməsi üçün müasir iş şəraiti yaradılmalı idi. Ona görə də Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin binası yenidən qurulmuş, müasir avadanlıqlar quraşdırılaraq lazımi iş şəraiti yaradılmış, mütəxəssislər işə qəbul olunmuşdur.

Ali Məclisin Sədri komitənin yeni binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Daşınmaz əmlak və torpaq məsələləri vacib sahədir. Ona görə də ölçü işləri və qiymətləndirmə düzgün aparılmalı, sənədlər dəqiq işlənərək qeydiyyata alınmalıdır. Vaxtilə bu sahədə buraxılan nöqsanlar aradan qaldırılmalı, komitə ilə vətəndaşlar arasında münasibətlər düzgün qurulmalıdır. Hazırda komitə tərəfindən 19 növdə elektron, 5 növdə səyyar xidmət göstərilir. Bütün bunlar da vətəndaşlara komitəyə gəlmədən öz əmlakları haqqında elektron formada arayış almalarına və digər sənədləşmə işlərini həyata keçirmələrinə imkan verir. Torpaq sahələrinin və daşınmaz əmlakın qeydiyyatı və qiymətləndirilməsi sahəsində görülən işlər bundan sonra da davam etdiriləcəkdir. Komitənin əməkdaşları öz işlərini yaxşı öyrənməli, fəaliyyətlərini bu sahəni tənzimləyən normativ hüquqi aktların, xüsusilə də "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununun və Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin tələbləri əsasında qurmalıdırlar.

Ali Məclisin Sədri bu vəzifələrin yerinə yetirilməsində kollektivə uğurlar arzulamış, açılışı bildirən lenti kəsmişdir.

Bildirilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi ilə yanaşı, komitənin Naxçıvan Şəhər İdarəsi və Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu üçün də iş otaqları ayrılmışdır. İnzibati binada müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, iclas zalı, xəritəçəkmə, server və çap otaqları, 3 arxiv otağı və bufet istifadəyə verilmişdir. Komitənin arxivində 200 minə yaxın torpaq və digər daşınmaz əmlak obyektlərinə dair sənədlər, torpaq balansı, geobotaniki tədqiqatlar, torpaqdan istifadə hüququna dair dövlət aktları, xəritələr, torpaq islahatı materialları, yerquruluşu sənədləri və kosmik fotoplanlar saxlanılır.

Binada ən müasir iş şəraiti yaradılmış, işdə operativliyin təmin edilməsi üçün 2 yeni server, 36 kompüter və 9 müxtəlif ölçülü printer quraşdırılmış, rayon idarələri ilə komitə arasında optik xətt üzərindən elektron sənəd dövriyyəsi sistemi yaradılmışdır.

Komitənin rayon idarələrinə 4 ədəd "NAZ Lifan X60" markalı yeni avtomobil təqdim olunmuş, səyyar xidmətin göstərilməsi üçün 1 ədəd "NAZ Lifan" markalı avtomobil mobil ofis halına gətirilmişdir. 2015-ci ilin yanvar ayından həyata keçirilən səyyar xidmət vasitəsilə 2 mindən artıq vətəndaşın müraciətinə baxılmışdır.

Ali Məclisin Sədri səyyar xidmətin genişləndirilməsi ilə bağlı tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin yerləşdiyi Zərifə Əliyeva küçəsində də yenidənqurma işləri aparılmış, yollar genişləndirilərək asfalt örtük salınmış, işıqlandırma sistemi qurulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan şəhərində “Fərda” unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsi yaradılmışdır





Azərbaycanda sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. ***“Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır”***, – deyən ölkə Prezidenti cənab İlham Əliyevin strateji xəttinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında da sahibkarlar üçün hərtərəfli şərait yaradılır, yeni istehsal və xidmət sahələri fəaliyyətə başlayır.

Sentyabrın 14-də Naxçıvan şəhərində “Fərda” unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək demişdir ki, Naxçıvanda özəl bölmənin inkişafına hərtərəfli dövlət dəstəyi göstərilir. Görülən işlərin nəticəsidir ki, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötmüşdür. Hazırda muxtar respublikada rəqabətədavamlı məhsul istehsal edən 441 sənaye müəssisəsi fəaliyyət göstərir. Bu istiqamətdə görülən işlər 2016-cı ildə də davam etdirilmiş, 16 yeni istehsal və xidmət müəssisəsi yaradılmışdır. “Fərda” unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsi də muxtar respublikada sahibkarlığın inkişafı sahəsində görülən işlərin davamıdır.

Sahibkar Zamiq Səfərov demişdir ki, muxtar respublikada yaradılan biznes mühiti yeni istehsal sahələrinin fəaliyyətə başlamasına imkan verir. Bu imkanlardan istifadə edərək yaradılan “Fərda” unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsində keyfiyyətli məhsul istehsal olunacaq, istehlakçılara yüksək səviyyədə xidmət göstəriləcəkdir. Zamiq Səfərov göstərilən qayğıya görə sahibkarlar adından Ali Məclisin Sədrinə



minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Bu gün muxtar respublikada yeni istehsal və xidmət müəssisəsi fəaliyyətə başlayır. Muxtar respublikada ilk dəfədir ki, eyni müəssisə həm istehsal, həm də xidmət sahəsi kimi fəaliyyət göstərəcəkdir. Bu da müəssisənin rentabelli işləməsinə, qənaət edilməsinə, istehsal olunan məhsulun və göstərilən xidmətin keyfiyyətinə nəzarət olunmasına imkan verəcəkdir.

Ali Məclisin Sədri demişdir: Hər bir ölkədə turizmin inkişafına xüsusi diqqət yetirilir. Turistlər isə o ölkələrə daha çox maraq göstərirlər ki, orada sabitlik olsun, xidmət sahələri inkişaf etsin və keyfiyyətli məhsul istehsal olunsun. Bu ilin ötən dövründə muxtar respublikaya 200 mindən artıq turist gəlmişdir. Turistlər muxtar respublikada bu cür müəssisələrin xidmətlərindən istifadə edirlər.

Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikada yeni müəssisələr fəaliyyətə başlayarkən sahibkarlara hərtərəfli dəstək göstərilir, dövlətimiz tərəfindən kreditlər verilir. Bununla yanaşı, yaxşı qazanc əldə edən sahibkarlar dövlət krediti ilə yanaşı, şəxsi vəsaitlərindən də istifadə edərək yeni müəssisələr yaradırlar. “Fərda” unlu-qənnadı məmulatları və dondurma istehsalı müəssisəsi yaradılarkən sahibkar öz şəxsi vəsaitindən daha çox istifadə etmişdir. Bu da gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsinə, yeni istehsal sahələrinin yaradılmasına, keyfiyyətə daha da çox diqqət yetirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri yeni istehsal və xidmət sahəsinin yaradılmasında əməyi olanlara təşəkkürünü bildirmiş, kollektivə uğurlar arzulamış və açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, istehsal sahəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondu və müəssisənin daxili imkanları hesabına 785 min manat vəsait sərf olunmuşdur. İkimərtəbəli binada kafe, tutumu 2 ton olan soyuducu kamera, qablaşdırma sahəsi, xammal və hazır məhsul anbarları, yeməkxana və digər xidmət sahələri vardır. Müəssisədə unlu-qənnadı məmulatları, dondurma, lokum, nuqa və nanəli konfet istehsalı sahələri fəaliyyət göstərir. Burada 7 növdə, 197 çeşiddə məhsul istehsal olunur. Müəssisənin muxtar respublikada 7 satış bölməsi vardır. Burada vətəndaşların istəklərinə uyğun olaraq da sifarişlər qəbul olunur və ünvanlarına çatdırılır. İstehsal sahəsində Naxçıvan mətbəxinə aid olan milli şirniyyat növlərinin hazırlanmasına daha çox üstünlük verilir. Müəssisənin gündəlik istehsal gücü 1200 kiloqram unlu-qənnadı məmulat, 250 kiloqram dondurma və 500 kiloqram lokum, nuqa və nanəli konfetdir. İstehsal prosesində təmizliyə və gigiyenik qaydalara ciddi diqqət yetirilir.

Ali Məclisin Sədri müəssisədə keyfiyyətə diqqət yetirilməsi, istehlakçıların və bazarın tələbatının nəzərə alınması barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət qulluğu haqqında qanunvericiliyin tətbiqi ilə bağlı keçirilən maarifləndirici seminarlara yekun vurulub

***Dünən Culfa rayonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət qulluqçularının etik davranış qaydaları, onların xidməti fəaliyyətinin qiymətləndirilməsi və dövlət orqanlarında kargüzarlığın aparılması qaydaları mövzularında seminar keçirilib. Seminarda 82 dövlət qulluqçusu iştirak edib.***

Tədbiri Culfa Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Qasımov açıb.

Seminarda komissiyanın şöbə müdirləri Ümid Qurbanovun, Mahir Abbasovun, baş məsləhətçi-hüquqşünas Zaman Bağırovun çıxışları olub.

Çıxışlarda bildirilib ki, dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə hüquqi və fiziki şəxslərin dövlət orqanlarına inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir. O, dövlət orqanının və dövlət qulluğunun nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa, etik davranış qaydalarının onun tərəfindən pozulması nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

Vətəndaşların müraciətlərinin qəbulu və qeydiyyata alınması, müraciətlərə baxılması və cavablandırılması, vətəndaşların qəbulunun təşkil edilməsi, müraciətlərlə bağlı sənədlərin qovluqlaşdırılması və saxlanılması qaydaları barədə iştirakçılara geniş məlumat verildiyi seminarda qeyd edilib ki, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununa əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilməlidir. Komissiya qeyd olunan normanın muxtar respublikada icrasını təmin etmək məqsədilə “Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları”nı təsdiq edib. Qaydalara əsasən, dövlət qulluqçusunun yanvar ayının 1-dən dekabr ayının 31-dək olan xidməti fəaliyyət dövrü qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun tabe olduğu rəhbər tərəfindən həyata keçirilir. Dövlət orqanı üzrə qiymətləndirilmənin nəticələrinə görə, yekun hesabat növbəti il mart ayının 1-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin meyarlara görə qiymətləndirilməsi məqsədilə hər ilin yanvar ayında dövlət qulluqçusu qarşısında təqvim ili ərzində icra etməli olduğu mühüm tapşırıqlar qoyulur. Dövlət qulluqçusunun xidməti fəaliyyəti peşə bilikləri, xidməti vəzifələrə münasibət, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, əmək intizamı, iş təcrübəsi və onu bölüşmə, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər meyarlarına əsasən qiymətləndirilir.

Slaydlarla müşayiət olunan çıxışlardan sonra seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

Məlumat üçün bildirək ki, 24 avqust-14 sentyabr tarixlərində muxtar respublikanın rayonlarında keçirilən seminarlarda, ümumilikdə, 578 nəfər dövlət qulluqçusu iştirak edib.

**Səbuhi HÜSEYNOV**

*Şərur rayonunun Çəmənli, Arbatan və Arpaçay kəndlərində kompleks quruculuq tədbirləri sürətlə davam etdirilir.*

## Şərur rayonunun daha üç kəndində aparılan quruculuq işləri davam etdirilir

Çəmənli kəndində yaxın aylarda yeni məktəb, kənd və xidmət mərkəzlərinin binalarından istifadə olunacaq. Kənd tam orta məktəbinin binası 360 şagird yerlik olmaqla, 3 mərtəbədən ibarətdir. Tədris müəssisəsinin yeni binasında müəllim və şagirdlərin ixtiyarına 20 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, kompüter otağı, hərbi və şahmat kabinələri, idman zalı və bufet veriləcək. Binada əsas tikinti işləri, demək olar ki, başa çatıb. Hazırda binanın daxilində və fasad hissəsində suvaq işləri aparılır.

Dövlət qurumlarının fəaliyyət göstərəcəyi kənd mərkəzi ikimərtəbəlidir. Kənd mərkəzinin binasında da əsas tikinti işləri başa çatdırılıb, kommunikasiya xətləri çəkilib, qapı və pəncərələr salınıb. Kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəliyin, bələdiyyənin, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının, kitabxananın, klubun, poçtun, səhiyyə, baytarlıq və polis məntəqələrinin fəaliyyətinə hərtərəfli şərait yaradılacaq.

Çəmənli sakinlərinə daha bir hədiyyə olan birmərtəbəli xidmət mərkəzində sənaye və təsərrüfat malları mağazaları, bir neçə xidmət sahəsi yerləşəcək. Bu quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şərur Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər.

Artay LTD Şirkətinin inşaatçıları isə rayonun Arbatan kəndində məktəb, kənd və xidmət mərkəzləri üçün yeni binaların inşası ilə məşğuldur. 234 şagird yerlik məktəbin və kənd mərkəzinin binaları iki, xidmət mərkəzinin binası birmərtəbəlidir. Aprel ayından tikintisinə başlanan obyektlərdə çalışan inşaatçıların texniki təhlükəsizliyi təmin edilib, obyektlərə daimi su xətti çəkilib, inşaat işlərinin keyfiyyətlə aparılması üçün hərtərəfli şərait yaradılıb.

Adıçəkilən tikinti kollektivinin bir qrup inşaatçısı isə rayonun Arpaçay yaşayış məntəqəsində kənd və xidmət mərkəzlərinin tikintisi ilə məşğuldur.

Obyektlərin hamısında yerli tikinti materiallarından istifadəyə üstünlük verilir, keyfiyyət amili diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**



15 sentyabr Bilik Günüdür

# Təhsilə qayğı gələcəyə qayğıdır

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixli Fərmanı ilə hər il sentyabrın 15-i ölkəmizdə Bilik Günü kimi qeyd olunur.*

Xalqımız hər zaman elm və təhsilin inkişafına böyük önəm vermişdir. Müdriklərimiz, ziyalılarımız cəmiyyətin inkişafını təhsildə görmüş, insanların savadlanması, gənclərin elm, bilik öyrənməsi qayğısına qalmışlar. Azərbaycanda Bilik Gününün hər il böyük uğurlarla qarşılanması, yeni dərs ilinə bayram əhval-ruhiyyəsi ilə başlanması da təhsilin cəmiyyət həyatında mühüm yer tutmasının nəticəsidir.



Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində müəyyənləşdirdiyi təhsil strategiyası ölkəmizdə bu sahənin davamlı inkişafının əsasını qoymuşdur. ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır"***, – deyən ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında müstəqillik illərində bu sahədə daha geniş islahatlar həyata keçirilmiş, Azərbaycan təhsili yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu gün də ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirilmiş, kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasında da ulu öndərin müəllifi olduğu təhsil strategiyası uğurla həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı nəticəsində son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuşdur. Hazırda Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni binanın, eləcə də 11 məktəb binasının tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır.

Muxtar respublikada təhsil müəssisələrinin müasir tədris vəsaitləri və informasiya texnologiyaları ilə təminatına xüsusi diqqət yetirilir. Artıq məktəblər müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunmuşdur. Bu günədək ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə və 3700-dən çox kompüter quraşdırılmışdır.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"na uyğun olaraq, xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə cəlbi diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması bu tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət kəsb edir. Məhz bununla muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası və onların təhsil hüquqları təmin edilmişdir.



Muxtar respublikada təhsil müəssisələrinin pedaqoji kadrlarla təminatı sahəsində də ardıcıl tədbirlər həyata keçirilir. Hər il təhsil yarmarkalarının təşkil edilməsi bu istiqamətdə atılan ən mühüm addımlardandır. Bu il sentyabrın 6-da keçirilən növbəti təhsil yarmarkasında göndəriş alan 304 gənc kadr ümumtəhsil məktəblərində pedaqoji fəaliyyətə başlayacaqdır. Bütün bunlar məktəblərin pedaqoji kadr təminatının yerinə yetirilməsi ilə yanaşı, həm də gənclərin məşğulluğunun təmin olunmasına mühüm töhfə verir.



2016-cı ildə ümumtəhsil məktəblərini 3138 məzun bitirmişdir. Məzunların 2469-u ali məktəblərə sənəd vermişdir ki, bu da məktəbi bitirənlərin 78,9 faizini təşkil edir. Sənəd verənlərin 1244-nü və ya 50,4 faizini qızlar, 1225-ni və ya 49,6 faizini isə oğlanlar təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2674 nəfər olmuşdur. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 80 faizidir.

Ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda iştirak edən 2016-cı ilin məzunlarından 1538-i ali təhsil müəssisələrinə qəbul olunmuşdur ki, bu da sənəd verənlərin 62 faizini təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 199-u ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olunmuşdur. Bütövlükdə ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə 1737 məzun qəbul olunmuşdur ki, bu da həmin təhsil müəssisələrinə sənəd verənlərin 65 faizini təşkil edir.

Ali təhsil müəssisələrinə qəbulda qızların da sayı artmaqdadır. 2016-cı ildə 500-700 arası bal toplayanların içərisində qızların sayı 194 nəfər və ya 57,5 faiz olmuşdur. Ümumilikdə, tələbə adını qazanan məzunların isə 813 nəfəri və ya 53 faizi qızlardır. 2015-2016-cı tədris ilində tələbə adını qazanan məzunlardan 63-ü xüsusi təyinatlı ali məktəblərə qəbul olunmuşdur. Naxçıvan şəhəri üzrə 90, Şərur rayonu üzrə 56, Babək rayonu üzrə 46, Ordubad rayonu üzrə 45, Culfa rayonu üzrə 35, Şahbuz rayonu üzrə 21, Kəngərli rayonu üzrə 16, Sədərək rayonu üzrə 5, Heydər Əliyev adına tam orta məktəb üzrə 10, Naxçıvan Qızlar Liseyi üzrə 10 və Naxçıvan Qarnizonunun tam orta məktəbi üzrə 4 məzun 500-700 arası bal toplamışdır.

Abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil almağa daha çox üstünlük verirlər. 2016-cı ildə 998 məzun ixtisas seçimi zamanı Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələrini seçmişdir. Onlardan 655-i Naxçıvan Dövlət Universitetinə, 142-si "Naxçıvan" Universitetinə, 201-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olunmuşdur. 27 məzun qızıl və gümüş medallara layiq görülmüşdür. Qəbul imtahanlarında həmin məzunlardan 12-si 600-650, 15-i isə 650-700 arası bal toplamışdır.Yüksək bal toplayan abituriyentlərdən 178-i Naxçıvan Dövlət Universitetinə, 15-i Bakı Dövlət Universitetinə, 26-sı Azərbaycan Tibb Universitetinə, 23-ü Azərbaycan Dövlət İqtisad Universitetinə, 22-si Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə, 20-si Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 5-i ADA Universitetinə, 5-i Bakı Ali Neft Məktəbinə qəbul olunmuşdur.

Artıq muxtar respublikamızda Bilik Günü yüksək əhval-ruhiyyə ilə qeyd olunur, əlamətdar gündə təhsil ocaqları öz qapılarını ölkəmizin daha da qüdrətlənməsi naminə çalışmaq arzusunda olan, bu arzunu gerçəkləşdirmək üçün elm və bilik öyrənməyə tələsən şagird və tələbələrin üzünə açır. Hər ötən təhsil ilini yeni-yeni uğurlarla başa vuran məktəblərimiz daha böyük nailiyyətlər qazanmağa səy göstərir, bu nailiyyətlərin əsasını elə ilk addımlardan – Bilik Günündən qoyurlar. Bu gün bilik məbədlərində yaradılan şərait, təhsil işçilərinə göstərilən hərtərəfli dövlət qayğısı, bir sözlə, muxtar respublikamızda insan kapitalına böyük önəm verilməsi övladını ilk dəfə məktəbə göndərən hər bir valideyndə övladının yaxşı təhsil alacağına, onun gələcəyinin etibarlı əllərdə olduğuna əminlik yaradır. Bu inamın, əminliyin qazanılması üçün böyük zəhmətlər çəkilmişdir.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin IX sinif şagirdlərinin buraxılış imtahanının nəticələri Azərbaycanda ən yüksək göstəricidir

2015-2016-cı tədris ilində IX siniflər üzrə buraxılış imtahanının nəticələrinə görə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə birbaşa tabe olan və Naxçıvan şəhərində fəaliyyət göstərən məktəblər Azərbaycan Respublikasında ən yüksək nəticə əldə edərək birinci yerə çıxıb. Qazanılan bu və ya bu kimi digər gözəçarpan uğurların təməlində duran amil isə, sözsüz ki, muxtar respublikamızda təhsilə, təhsil işçilərinə göstərilən yüksək qayğıdır. Son 20 ildə muxtar respublikamızda 200-dən artıq təhsil müəssisəsi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bütün təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib, məktəblər ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Bu da muxtar respublikada təhsil sahəsində nailiyyətlərin ilbəil artmasına stimul olub. Bunu cari ilin nəticələri də göstərir.

İyunun 11-də Naxçıvan Muxtar Respublikası ümumtəhsil məktəblərinin IX və XI siniflərini bitirən məzunların buraxılış imtahanları keçirilib. İmtahanların nəticələri göstərir ki, muxtar respublikada təhsil sahəsində keyfiyyət və kəmiyyət yüksələn xətt üzrə inkişaf edir. IX siniflərin buraxılış imtahanında Naxçıvan şəhər ümumtəhsil məktəblərindən 914, Şərur rayonundan 748, Babək rayonundan 632, Ordubad rayonundan 437, Culfa rayonundan 401, Şahbuz rayonundan 157, Kəngərli rayonundan 222, Sədərək rayonundan 99 nəfər olmaqla, ümumilikdə, 3610 nəfərin iştirakı təmin edilib. Əvvəlki illə müqayisədə buraxılış imtahanının keyfiyyət göstəriciləri ilk baxışda diqqəti cəlb edir. Belə ki, Naxçıvan şəhəri və Təhsil Nazirliyinə birbaşa tabe olan məktəblər üzrə ötən il keyfiyyət göstəricisi 80,32 faiz olubsa, cari ildə bu rəqəm 84,55 faiz təşkil edib. Muxtar respublikanın rayonlarında da keyfiyyət göstəriciləri yüksələn xətlə müşahidə olunur. Belə ki, Şərur rayonu üzrə ötən il 74,60 faiz, cari ildə 76,47 faiz, Babək rayonu üzrə ötən il 62,03 faiz, cari ildə 70,61 faiz, Ordubad rayonu üzrə ötən il 64,93 faiz, cari ildə 67,96 faiz, Culfa rayonu üzrə ötən il 62,35 faiz, cari ildə 71,01 faiz, Şahbuz rayonu üzrə ötən il 69,66 faiz, bu il 78,34 faiz, Kəngərli rayonu üzrə ötən il 60,47 faiz, cari ildə 72,07 faiz, Sədərək rayonu üzrə ötən il 65,46 faiz, cari ildə 68,69 faiz keyfiyyət göstəricisi qeydə alınıb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***




**Qeyd:** Xəritədə göstərilən yaşıl işarələr IX sinif şagirdlərinin buraxılış imtahanında kəmiyyət və keyfiyyət göstəricisinin yüksəldiyini, qırmızı işarələr isə kəmiyyət və keyfiyyət göstəricisinin azaldığını bildirir. Xəritədən göründüyü kimi, Naxçıvan Muxtar Respublikası üzrə IX sinif şagirdlərinin buraxılış imtahanında kəmiyyət və keyfiyyət göstəricisi yüksəlib.

# Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında bayram konserti olub

***Sentyabrın 12-də müqəddəs Qurban bayramı ilə əlaqədar Naxçıvan şəhərindəki Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi-2016”nın iştirakçılarının konserti olub. Konsertdən əvvəl aparıcı şəhərimizin sakinlərini və qonaqlarını salamlayaraq bildirib ki, belə tədbirlərin keçirilməsi bayram günlərində insanların asudə vaxtının və istirahətinin səmərəli təşkilinə xidmət edir.***





Bayram konsertində müsabiqə iştirakçılarından Aqil Adilzadənin, Fərman Allahverdiyevin, Təyyar Mədətlinin, İlham Məmmədovun, Əsmər Hüseynovanın, Yusif Hacıyevin, Səfər Cəfərovun, Rəşad Nəcəfovun, Fuad Qədimovun, Bəhruz Quliyevin, Elmar Hüseynovun, Ataxan Quliyevin ifasında səslənən xalq mahnı və təsnifləri tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb. İki saat davam edən konsertdə “Ay bülbüllər”, “Ay qəşəng ceyran”, “Bəri bax”, “Alma almaya bənzər”, “Gedirəm axı” və başqa Azərbaycan xalq mahnıları ilə bərabər, təsniflər də səsləndirilib.

Bayramın ikinci günü də Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında konsert təşkil edilib. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı geniş konsert proqramı ilə tədbir iştirakçılarına xoş ovqat bəxş edib.

Ansamblın solistləri Hüseyn Qasımovun, Samiddin Vəliyevin, Cəfər Tağıyevin, Namiq Vəliyevin, Nərmin Hüseynovanın ifalarında Azərbaycan xalq mahnılarının və bəstəkarlarımızın populyar mahnıları səsləndirilib.

Kollektivin rəqs qrupunun üzvlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Sona Abbasovanın ifa etdiyi “Sarı gəlin”, Zəlihə Hüseynquliyevanın “Qavalla rəqs”i, rəqs qrupunun ifasında təqdim olunan “Yallı”, “Naz eləmə”, “Üç gül” və başqa rəqslər də tamaşaçılarda xoş ovqat yaradıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Xatirə Səfərova, Zülfüqar Mahmudov və Hünər Əliyevin ifalarında səslənən xalq mahnıları və bəstəkar nəğmələri də alqışlarla qarşılanıb.

Bayram günlərində təşkil olunan konsertlərdə Naxçıvan şəhərinin sakinləri ilə bərabər, şəhərimizin qonaqları da iştirak edib.

**Əli RZAYEV**

## ELAN

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti 2016-cı il 15 sentyabr tarixindən etibarən pilot kurslarına sənəd qəbulu elan edir. Kurslara yaşı 27-dək olan, hərbi xidmət keçmiş, ingilis dilini bilən oğlanlar dəvət olunur. Sənədlər Naxçıvan Beynəlxalq Hava Limanında qəbul olunur.

**Əlaqə**

*Telefon: (036) 544-47-05*
*Email: airportnakhchivan@gmail.com*

## Tenderə dəvət

***Tarix: 15 sentyabr 2016-cı il***

***Kredit nömrəsi və adı: 2571-AZE: “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 1”.***

***Müqavilə nömrəsi və adı: Twin-Equip T1-NCB-1: Tvininq Proqram üçün avadanlıqların satın alınması (yerli rəqabətli tender)***

***Təkliflərin verilməsi üçün son tarix: 13 oktyabr 2016, Bakı vaxtı ilə $10^{00}$.***

1. Azərbaycan Respublikası “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı-Layihə 1”-in xərclərini qarşılamaq üçün Asiya İnkişaf Bankından kredit almışdır. Bu kreditin bir hissəsi yuxarıda göstərilmiş müqavilənin xərclərini ödəmək üçün istifadə ediləcəkdir. Tender Asiya İnkişaf Bankının üzvü olan dövlətlərin münasib şirkətləri arasında keçirilir. Qiymətləndirmə zamanı “Yarayır/Yaramır” kriteriyaları tender paketinin 3-cü fəslində – qiymətləndirmə və peşəkarlıq kriteriyalarında göstərilmişdir.

2. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi – Sifarişçi Tvininq Proqramına avadanlıq alınması məqsədilə aşağıdakı siyahıda verilənləri özündə cəmləşdirən, lakin yalnız bu siyahı ilə məhdudlaşmayan avadanlıqların alınması üçün münasib iddiaçıları möhürlənmiş təkliflər verməyə dəvət edir:

| № | Avadanlıqların və ya xidmətlərin adı | Təsviri | Ölçü vahidi | Kəmiyyəti |
|---|---|---|---|---|
| 1. | **Avtomobil və zəruri avadanlıq** | Kəsici robotu montaj etmək üçün avtomobil və avadanlıq | Ədəd | 1 |
| 2. | **Kəsici robot** | Tıxanmış və tutulmuş kanalizasiya şəbəkələrini açmaq və bərpa etmək üçün kəsici robot | Ədəd | 1 |
| 3. | **Daşına bilən kompressor** | Kompressor kəsici robotla birlikdə tıxanmış kanalizasiya şəbəkələrini açmaq və bərpa etmək üçün istifadə ediləcəkdir. | Ədəd | 1 |
| 4. | **Su sızmalarını təyin etmək üçün mikrofon dəsti** | Su sızmalarını təyin etmək üçün su sızmalarını dinləyən mikrofon | Ədəd | 1 |
| 5. | **Səs yazan və multi korrelyator (20 ədəd mikrofonla)** | Borularda və bütün birləşmə nöqtələrində qeyri-məhdud sayda səsləri yazaraq korrelyasiya edəcəkdir | Ədəd | 1 |

Müqavilənin ehtimal olunan icra müddəti 6 aydır.

3. Yerli rəqabətli tender Azərbaycan Respublikasının 27 dekabr 2001-ci il tarixli “Dövlət satınalmaları haqqında” Qanununa əsasən tender sənədlərində göstərilmiş münasib ölkələrdən olan iddiaçı şirkətlər arasında keçirilir.

4. Yuxarıda təsvir edilmiş bütün malların təchizatı spesifikasiyada göstərilmiş qaydalarla icra ediləcəkdir. Əlavə məlumat üçün iddiaçılar tender sənədlərinin 6-cı fəslinə – sifarişçinin tələblərinə baxa bilərlər.

5. Əlavə məlumat almaq və ya tender sənədlərini əldə etmək üçün iddiaçı aşağıdakı şəxslə əlaqə saxlaya bilər:

***İbrahim Məmmədov, Layihə idarəetmə qrupunun direktoru (LİQ)***

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (DMSTK), birinci mərtəbə, iclas zalı***

***Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Xətai məhəlləsi***

***Telefon: (+99436) 545-26-18***

***Faks: (+99436) 545-30-67***

***Elektron poçt ünvanı: dmstk@nakhchivan.az***

6. Tender sənədlərini ingilis dilində almaq üçün iddiaçılar:

• Tvininq üçün avadanlıq alınması məqsədilə yuxarıda göstərilmiş ünvana yazılı müraciət etməlidirlər.

• 150 manat və ya $100 ABŞ dolları geri qaytarılmayan məbləği aşağıdakı hesaba ödəməlidirlər.

• Tender sənədləri kuryer poçtla göndərilə bilər və ya nümayəndəniz tərəfindən ofisdən götürülə bilər.

• Tender sənədləri əlavə $125 ödənilməklə xarici ölkələrə kuryer poçtla göndərilə bilər. İtmələrə və gec çatdırılmaya görə məsuliyyət daşınılmır.

• Vəsait yuxarıda göstərilmiş bank hesabına qəbul edildikdən sonra iddiaçı tender sənədlərini DMSTK-nın ofisindən götürə bilər. Alternativ olaraq DMSTK vəsait hesaba köçürüldükdən sonra iddiaçının yazılı müraciəti əsasında tender sənədlərini kuryer poçtla iddiaçıya göndərə bilər.

***Alanın adı: Naxçıvan MR Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi***

***VÖEN: 0200022991***

***Alanın bankı: Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan MR İdarəsi***

***Kodu: 502906***

***VÖEN: 0200087741***

***Müxbir hesabın nömrəsi: AZ88NABZ01451700000000012944***

***SWIFT kodu: NABZAZ2C***

***Manat hesabı No: AZ95NABZ12360150000000026944***

***ABŞ dolları hesabı No: AZ91NABZ12360250000000001840***

7. Tender təkliflərinin hazırlanması üçün dil: təkliflər Azərbaycan və ya ingilis dilində verilə bilər. Azərbaycan dilində təklif vermiş və qısa siyahıya düşmüş şirkətlər sifarişçi müraciət etdikdən sonra 1 həftə ərzində təklifləri ingilis dilinə tərcümə etməlidirlər.

8. Zəhmət olmasa təkliflərinizi yuxarıdakı ünvana çatdırın:

• təkliflərin verilməsi üçün son tarix ***13 oktyabr 2016-cı il, Bakı vaxtı ilə $10^{00}$-da***

• təkliflər tender sənədlərində göstərilmiş tender zəmanəti ilə birlikdə veriləcəkdir.

9. Təkliflər, təkliflərin verilməsi üçün göstərilmiş son tarixdən dərhal sonra açılışda iştirak etmək istəyən şirkətlərin nümayəndələrinin iştirakı ilə açılacaqdır.

## Invitation for bids

***Date: 15 September 2016***

***Loan No. and Title: 2571-AZE: Water Supply and Sanitation Investment Program – Project 1***

***Contract No. and Title: Twin-Equip T1-NCB-1: Procurement of Equipment for Twinning Program (National Competitive Bidding)***

***Deadline for Submission of Bids: 13 October 2016, $10^{00}$ A.M. Baku Time***

1. The Republic of Azerbaijan received a loan from the Asian Development Bank (ADB) towards the cost of the Water Supply and Sanitation Investment Program – Project 1. Part of this loan will be used for payments under the above mentioned contract. Bidding is open to the bidders from eligible source countries of the ADB. Qualifying requirements for assessment on a “Pass/Fail” basis are stipulated in Section 3, Evaluation and Qualification Criteria of the bidding document.

2. The State Amelioration and Water Management Committee (SAWMC) of the Nakhchivan Autonomous Republic – The Employer invites sealed bids from eligible bidders for the Purchasing of Equipment for Twinning Program, consisting of, but not limited to the followings:

| Item № | Name of Goods or Related Services | Description | Unit of Measurement | Quantity |
|---|---|---|---|---|
| 1. | **Vehicle and necessary equipment** | Vehicle and necessary equipment for installation of cutting robot | Pieces | 1 |
| 2. | **Cutting robot** | Cutting robot for opening and recovering of the plumbed sewerage networks | Pieces | 1 |
| 3. | **Retractable type compressor** | Compressor will be used with cutting robot for opening and recovering of the plumbed sewerage networks | Pieces | 1 |
| 4. | **Set of water leak listening microphone** | Water leak listening microphone for determination of water leakeges. | Pieces | 1 |
| 5. | **Sound recorder and multi correlator (With 20 micraphone)** | Will be able to use unlimited number of recorders to make noise measurements from all kind of connection points with the pipe and make the correlation on it at any time. | Pieces | 1 |

The estimated implementation period is 6 months.

3. National Competetive Bidding will be conducted in accordance with Public Procurement Law of the Republic of Azerbaijan dated on December 27, 2001 and is open to all bidders from eligible countries as described in the Bidding Document.

4. Supply of all the goods described above must be imlemented as shown in the specifications. For further information the bidders should refer to the details indicated in Section 6, Employer's Requirement of the bidding document.

5. To obtain further information and inspect the bidding documents, bidders should contact:

***Mr. Ibrahim Mammadov, Director of Project Management Unit (PMU)***

***State Amelioration and Water Management Committee (grounf floor, meeting room) , Nakhchivan AR***

***Khatai district, Nakhchivan***

***The Republic of Azerbaijan, Nakhchivan Autonomous Republic***

***Telephone: (+99436) 545-26-18***

***Facsimile number: (+99436) 545-30-67***

***Electronic mail address: dmstk@nakhchivan.az***

6. To purchase the bidding documents in English, eligible bidders should:

• write to the above address requesting the bidding documents for purchasing of Twinning Equipments

• pay a non-refundable fee of 150 Manats or $100 USD by direct deposit to the Account No. mentioned below.

• You may receive the bidding document by courier post or by your representative.

• The bidding document will be sent via courier post for an additional fee of $125 USD for overseas delivery. No liability will be accepted for loss or late delivery.

• Upon receipt of appropriate payment of the non refundable fee to the above mentioned bank account, the bidders may receive the bidding documents from the SAWMC office. Alternativ olaraq, SAWMC will dispatch the bidding documents to the interested bidders after receiving their appeal in written form and receiving of payment to bank account.

***Beneficiary's Name: State Amelioration and Water Management Committee (SAWMC), Nakhchivan AR***

***TAX ID: 0200022991***

***Beneficiary's Bank: Nakhchivan AR Office of the Central Bank of Azerbaijan Republic***

***Code: 502906***

***TAX ID: 0200087741***

***Correspondent Acc No: AZ88NABZ01451700000000012944***

***SWIFT Code: NABZAZ2C***

***Manat account No: AZ95NABZ12360150000000026944***

***USD account No: AZ91NABZ12360250000000001840***

7. The language of the Bid is: The proposals shall be submitted in Azeri or English. Shortlisted suppliers who submit proposals in Azeri will be requested to provide an English translation of their proposal within 1 week from the date of request from the Purchaser.

8. Please submit you proposals to the above mentioned address:

• on or before the deadline ***13 October 2016 at $10^{00}$ AM (Baku Time)***

• together with a Bid Security as specified in the bidding document

9. Bids will be opened immediately after the deadline in the presence of bidders' representatives who choose to attend.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1050. Sifariş № 688